# "Şəhid bağı"



*Heç bir mükafatın yetmədi mənə,*
*Bircə sağolun da bəsimdi Vətən*
*Bəsimdir hər səhər təltif yerinə*
*Qapımda küləyin əsibdir, Vətən!*
*Qol verdin boynumu qucaqlamağa,*
*Göyünə baxmağa göz verdin, bəsim*
*Kürək söykəyənin ana torpağa*
*Haqqı yox ayrı bir təltif istəyə...*

Sevimli şairimiz Məmməd Araz bu şerini sanki məxsusi olaraq şəhadətə qovuşan igid şəhidlərimizə həsr etmişdir. Heç bir təmənna düşünmədən Vətən, Torpaq və xalqının asayişi, azadlığı, torpaqlarının azadlığı və bütövlüyü uğrunda canını qurban verdi şəhidlər. Onlar könüllərdə, yaddaşlarda əbədi məskən saldılar.

Tariximizə yeni səhifələr yazan həmişəbahar ömürlü igid, vətənpərvər oğullarımız əbədiyaşarlardır. Onları tarix boyu yaşatmaq, gələcək nəsillərə qəhrəmanlıq tarixinin qəhrəmanları kimi çatdırmaq bu gün hər bir vətəndaşın müqəddəs borcudur. Daşca kənd ziyalısı Teyfur müəllim də məhz onların xatirəsini yaşatmaq üçün hər bir qəbələli şəhidin adına bir fidan pöhrə əkərək, onlara qulluq göstərərək sağlam böyüməsinə çalışır. Bu onun şəhid övladlara olan sevgi və hörmətindən, diqqətindən irəli gəlir.

Hər bir şəhidin adına əkdiyi ağaca qəlbinin vətəndaşlıq sevgisi ilə qayğı göstərir.Bu günlərdə şəhid valideynləri və "Qəbələnin səsi" ictimai yazarlar birliyi ilə birgə "Şəhid bağı" nda görüş keçirilmişdir. "Qəbələnin səsi" nin yazarları və şəhid valideynləri bağdakı ağacların suvarılmasında iştirak etmiş, şəhid olan qəhrəman qəbələli gənclərin xatirələri bir daha yad edilmişdir.

Belə "xatirə kompleksləri" daha təbii və diqqətəlayiqdir. Şəhidlər haqqında bağ-baxçaların salınması davam etdirilsə, bu həm qəhrəmanlarımıza hörmət və qayğı, həm də təbiətimizin daha da zənginləşdirilməsi kimi təqdirəlayiqdir.

**BİBİXANIM.**

# Mediasiya məhkəmələrə olan müraciətləri azaldır

Yeni yaradılmış Qəbələ 1 saylı Mediasiya Təşkilatı Qəbələ Regional Asan Xidmət Mərkəzinin binasında fəaliyyətə başlamışdır. Təşkilat Qəbələ, Oğuz, İsmayıllı və Göyçay rayonlarından olan mülkü, ailə, kommersiya, inzibati-hüquq, əmək, iqtisadi və digər mübahisələrə aid müraciətləri qəbul edir, həlli istiqamətində tədbirlər görür.

Mediasiya haqqında Azərbaycan Respublikasının qanununa uyğun olaraq, kommersiya mübahisələri, həmçinin ailə və əmək münasibətlərindən irəli gələn mübahisələr üzrə məhkəməyə müraciət etməmişdən əvvəl tərəflərin mediasiyaya müraciət etmələri tələb olunur. Mübahisələr mediasiya proseslərində öz həllini tapdığı halda tərəflərin uzun-uzadı sürən məhkəmə çəkişmələrinə ehtiyac qalmır. Bir sözlə, uğurlu mediasiya fəaliyyəti məhkəmələrə olan müraciətlərin sayını və tərəflər arasında yaranan münaqişələri azaldır.



Mediasiya fəaliyyətində fərqləndiklərinə görə təşkilatın rəhbəri Ədalət Əliyev və əməkdaşı Səma İlyazlı Mediasiya Şurası İdarə Heyətinin sədri cənab Nadir Adilov tərəfindən təşəkkürnamə və pul mükafatları ilə təltif olunmuşlar.

# Payızlıq dənlilərin səpini proqnozlaşdırılır



Bu ilin payızında Qəbələ rayonunda gələn ilin məhsulu üçün 19 min 500 hektaradək sahədə payızlıq dənli bitkilərin səpini proqnozlaşdırılır. Hazırda təsərrüfatlarda payızlıq dənlilərin səpini üçün yay şumu davam etdirilir. İndiyədək təsərrüfatlarda 2 min 820 hektar sahədə yay şumu aparılıb. Bu ilki mövsümdə rayonda 15 min 465 hektar sahədən 44 min 430 ton taxıl istehsal olunub. Hər hektardan orta məhsuldarlıq 28,7 sentner olub. İstehsal olunan taxılın 32 min 712 tonu buğda, 11 min 718 tonu arpadır. Taxıl biçini başa çatdıqdan sonra rayonun təsərrüfatlarında 350 hektar sahədə silos üçün təkrar qarğıdalı əkilib. Təkrar əkinlər əsasən Vəndam, Nic qəsəbələrinin və Tüntül kəndinin ərazilərində aparılıb.

# "XƏZƏR FESTİVALI COKE STUDİO İLƏ BİRGƏ"





12 avqust 2023-cü il tarixində Xəzər Media Mərkəzinin, "Azərbaycan Coca Cola Bottlers" MMC-nin təşkilatçılığı və Qəbələ Rayon İcra Hakimiyyətinin dəstəyi ilə şəhərin mərkəzi meydanında tanınmış gənc ifaçıların iştirakı ilə "XƏZƏR FESTİVALI COKE STUDİO İLƏ BİRGƏ" adlı musiqi festivalı təşkil edilmişdir.

# Uğurlu nəticələr

2022 - 2023-cü tədris ili əvvəlki tədris illərində olduğu kimi Qəbələ rayonun təhsil kollektivləri üçün uğurlu olmuşdur. Çox sevindirici haldır ki, bu il rayonunun 53 tam orta məktəbinin 1220 nəfər məzunundan 36 nəfəri fərqlənmə attestatına layiq görülüb, 17 nəfəri qəbul imtahanlarından 600-dən yuxarı bal toplamışdır. Qeyd edək ki, son illər ölkəmizdə təhsilin inkişafı ilə bağlı kompleks tədbirlərin həyata keçirilməsi, təhsil müəssisələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi, müəllimlərin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində atılan addımlar Qəbələ rayonunda da təhsilin keyfiyyətinə birbaşa təsir edən amillərdəndir. Tələbə adını qazanmış bütün məzunları təbrik edir, onlara təhsildə və həyatda uğurlar arzulayırıq.

# "Bacarıqlı əllər" adlı tədbir

24 avqust 2023-cü il tarixində Qəbələ Uşaq Reabilitasiya Mərkəzində tədris-peşə reabilitasiyası alan sağlamlıq imkanları məhdud uşaqların əl işlərindən ibarət sərgi təşkil edilmişdir. Qəbələ Rayon Tarix Diyarşünaslıq Muzeyində keçirilən tədbirdə çıxış edənlər Uşaq Reabilitasiya Mərkəzlində həyata keçirilən tibbi, sosial, tədris-peşə reabilitasiyasının sağlamlıq imkanları məhdud uşaqların sosial statusunun bərpa edilməsi və onların cəmiyyətə inteqrasiyasının təminatını yaxşılaşdırmaq məqsədi daşıdığını qeyd etmişlər. Ölkəmizdə uşaqlara, o cümlədən sağlamlıq imkanları məhdud uşaqlara qayğı göstərilməsi sahəsində dövlət tərəfindən mühüm işlərin aparıldığını vurğulanmışdır. Sonra Uşaq Reabilitasiya Mərkəzində reabilitasiya keçən uşaqların əl işlərindən ibarət sərgiyə baxış keçirilib.

